# BU SON HƏDD DEYİL



*Quba rayon MKS-də 107 kitabxana fəaliyyət göstərir. Kitab fondu 619, 2 min nüsxə, oxucuların sayı 31, 2 min nəfərdir. Oxucuların 22, 4 min nəfəri kənd kitabxanalarının payına düşür. Kitab fondunun 10, 5 min nüsxəsi latın qrafikalı ədəbiyyatdır.*

*Ötən il mərkəzi kitabxanada 3 oxucu konfransı, 4 ədəbi-bədii gecə, 8 kitab müzakirəsi, 12 görüş, 36 kitab sərgisi, müxtəlif məruzə, mühazirə, şer gecələri, ucadan oxular və s. təşkil edilmişdir.*

*Kitabxanaların vahid iş planı əsasında fəaliyyət göstərməsi əsasən təmin edilmiş, demək olar ki, əksər kitabxanalara illik təqvim planı verilmişdir.*

*Azərbaycan Respublikasının sabiq prezidenti, ümummilli lider H. Əliyevin fəaliyyətini əks etdirən geniş sərgi təşkil edilmiş, digər tədbirlər keçirilmişdir. Sərgidən sonra kitabxana işçiləri Respublika Prezidenti cənab İ. Əliyevin apardığı kursu geniş izah və təbliğ edirlər.*

2004-cü il 20 Yanvar, Xocalı faciəsi, Gənclər günü, Qurtuluş günü, Novruz bayramı, 9 May Qələbə günü, Dirçəliş günü, Uşaqları müdafiə günü, Bilik günü, Qasım bəy Zakirin 220, Ə. Vahidin 110, M. Füzulinin 510, İ. Şıxlının 85, A. Bakıxanovun 210, C. Cabbarlının 115, N. B. Vəzirovun 150, V. Səmədoğlunun 65, H. Arifin 80, Ç. Əlioğlunun 60, Hidayətin 60, N. Xəzrinin 80, T. Bayramın 70, F. Mehdinin 70, Əfqanın 75, H. Ziyanın 75 illik yubileyləri və s. müxtəlif mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir.

Bu il Gənclər günü, 20 Yanvar, Xocalı faciəsi, böyük bəstəkar, xalq artisti Polad Bülbüloğlunun 60 illik yubileyləri münasibətilə müxtəlif tədbirlər təşkil olunmuşdur.

"Ay işığı" və "Gülüstan" ədəbi məclislərinin üzvləri ilə mütəmadi görüşlər keçirilmiş, yerli şair və yazıçıların əsərləri geniş təbliğ olunmuşdur. Həyata keçirilən tədbirlər respublika, yerli televiziyalar və mətbuat orqanları vasitəsilə vaxtlı-vaxtında işıqlandırılmışdır.

Məktəblərlə əlaqə kitabxana işinin əsas vəzifələrindəndir.

Yanvar və fevral ayları istisna olmaqla hər ay kitabxana işçilərinin aylıq seminar iclasları keçirilmişdir.

Burada kitabxana işinin aktual problemləri müzakirə olunmuş, yerlərdə işin vəziyyəti, praktiki və nəzəri məsələlər, bir sıra digər metodiki mövzular müzakirə edilmişdir.

Mərkəzi kitabxanalarda Soros fondunun və ABŞ səfirliyinin köməyi ilə hər cür şəraiti olan, tədris informasiya mərkəzi-kompüter zalı yaradılmış və hal-hazırda oxuculara xidmət göstərir.

İstər mərkəzi kitabxanada, istərsə də yerlərdə əmək intizamının möhkəmləndirilməsi məsələləri bir neçə dəfə müzakirə edilmişdir. Son bir ildə rayon mərkəzi kitabxanasının metodistləri kənd kitabxanalarında olmuş, kitabxana işçilərinə yerlərdə metodiki köməklik göstərmişdir. Kitab fondunun uçotu, mühafizəsi diqqət mərkəzində olmuş, lüzumsuz yerə ədəbiyyat silinməsinə yol verilməmişdir. Kitab fondları qaydaya salınmışdır.

Xüsusən mərkəzi kitabxanada işgüzar şəraitin yaradılması təmin edilmişdir. Bununla yanaşı Qəçrəş, I Nügədi, Rustov, Alekseyevka, Zərdabi, Vladimirovka, Hacıhüseynli, Qırmızı Qəsəbə, Amsar və s. nümunəvi kənd kitabxanaları da vardır.

3 nəfər kitabxana işçisinə yardım göstərilmişdir. İlin yekununa görə 1 kitabxanaçı rayon icra hakimiyyəti tərəfindən mükafatlandırılmışdır. 2004-cü ildə 6 milyon manatlıq müqavilə bağlanmış və həmin məbləğdə kitab gətirilmişdir. Kitabxanaya müxtəlif təşkilatlardan 300 nüsxəyədək kitab hədiyyə edilmişdir. Ötən il ABŞ səfirliyi tərəfindən kitabxanaya 900 kitab verilmişdir. Bu müddətdə 15, 9 milyon manatlıq qəzet və jurnala abunə yazılmışdır.

2005-ci ildə də Respublika Kitabxana Kollektoru ilə müqavilə bağlanmışdır. Fevral ayında Respublika Prezidenti cənab İ. Əliyevin

müvafiq sərəncamına uyğun olaraq Quba rayon MKS-ə 4438 nüsxə latın qrafikalı müxtəlif ədəbiyyat verilmişdir. Proses bundan sonra da davam edəcəkdir.

2004-cü ildə 9 nəfər kitabxana işçisi ixtisasartırma kursuna göndərilmişdir. 2 nəfər Beynəlxalq seminarlarda iştirak etmişdir. 1 nəfər kitabxana işçisi ABŞ səfirliyində treninq-müəllim kimi hazırlanmışdır.

Mərkəzi kitabxananın dam örtüyü və 1 iş otağı təmir olunmuş, mərkəzi kitabxanaya 42 ədəd oturacaq, 12 stol, tozsoran verilmişdir.

Ötən ildə MKS Mədəniyyət Nazirliyinin, rayon icra hakimiyyətinin, yuxarı orqanların verdiyi tapşırıq və göstərişləri vaxtında icra etmişdir. 2004-cü ildə Quba rayon MKS Azərbaycan Respublikasının Mədəniyyət naziri cənab Polad Bülbüloğlunun əmri ilə III qrupdan II qrupa keçirilmişdir.

MKS Respublika Həmkarlar İttifaqı Konfederasiyasının "Mazut müqaviləsi"nin 1000 illiyinə həsr etdiyi "Hər bir iş yerində yüksək istehsal mədəniyyəti" baxış- müsabiqəsində fərqləndiyinə görə diploma layiq görülmüşdür.

Kitabxana işçilərinin əmək haqqının Əmanət bankı vasitəsi ilə ödənilməsi təmin edilmişdir.

*Qeyd etmək lazımdır ki, kənd kitabxanalarının yanacaqla təmin olunmasında problemlər vardır. Kitabxanaların bir çoxunun inventara, kitab rəfinə, stola, stula, dəftərxana ləvazimatlarına ehtiyacı vardır. Vəsait az olduğuna görə kənd kitabxanalarına latın qrafikalı ədəbiyyat az verilir. Yerli, rayondaxili ezamiyyətlər üçün xərclər nəzərdə tutulmalıdır.*

***N. Əsədullayev,***
***Quba rayon MKS-in direktoru***

